# Rayon müəllimlərinin konfransında təhsil şöbəsinin müdiri Arifə Bayramovanın hesabat məruzəsi

*(İxtisarla)*

(Əvvəli 4-cü səhifədə).

**Hörmətli konfrans iştirakçıları!**

Ümumtəhsil məktəblərində təlim keyfiyyətinin yüksək olmasını təsdiq edən amillərdən birini və əsasını məzunlarımızın respublikanın ali məktəblərinə qəbul səviyyəsi təşkil edir. Bu il ölkəmizdə qəbul qaydası yeni formatda aparılıb. Məzun attestat imtahanından maksimum 300 bal, qəbul imtahanında isə maksimumum 400, ümumilikdə cəmi 700 bal toplaya bilərdi. Məzunlara attestat imtahanında bir dəfə, qəbul imtahanlarında isə iki dəfə iştirak etmələrinə şans verilir. Bu da məzunların daha yüksək nəticə göstərmələrinə zəmin yaradır. Rayonumuzun məzunları son illər davamlı olaraq qəbulun nəticələrinə görə respublikanın qabaqcıl regionları sırasına daxil olurlar. Neçə illərdir ki, məzunlarımız bu ənənəni qoruyub saxlaya bilmişdir. 2018-2019-cu dərs ilində rayonun ümumtəhsil məktəblərini tam orta təhsil üzrə 1137 nəfər məzun bitirmiş, onlardan 802 nəfəri ali məktəblərə sənəd vermiş, 485 nəfəri tələbə adını qazanmışdır. Məzunlardan 112 nəfəri 500-dən çox, onların 35 nəfəri 600 dən çox bal toplamışdır.

Məzunları yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan məktəblər sırasında şəhər 1, 2, 3, 4, 5 nömrəli, Hacıalılı, Həmzəli, Mıxlıqovaq, Nohurqışlaq, Tüntül, Yemişanlı, Dızaxlı, Bunud, Mirzəbəyli, Qəmərvan, Kötüklü və s. kənd tam orta məktəblərin adlarını iftixarla çəkmək olar.

Təlim sahəsində qazanılan bütün uğurların , nailiyyətlərin memarı müəllimlərdir. Müəllimlərimizin əksəriyyəti gündəlik dərslərə yüksək səviyyədə hazırlaşaraq hər bir fənn üzrə təlim standartlarını keyfiyyətlə yerinə yetirməyə çalışırlar. Onlar müasir təlim texnologiyalarından , elektron lövhələrdən, bütün təlim resurslarından məharətlə istifadə edirlər.

Ümumtəhsil məktəblərinin əsas göstəricilərindən biri ümumi orta və tam orta təhsil kursu üzrə buraxılış imtahanlarının nəticələridir,IX sinif məzunlarının buraxılış imtahanları 2 mərhələdə ,XI sinif məzunlarının buraxılış imtahanları isə bir mərhələdə keçirilmişdir.

2017-2018 və 2018-2019-cu dərs ilində ümumtəhsil kursu üzrə keçirilmiş buraxılış imtahanlarının nəticələrinin müqayisəsi göstərir ki, Quşlar, Böyük Əmili, Qaradeyn, Çarxana, Tövlə kənd tam orta, Bum qəsəbə, Seyidqışlaq, Laza, Tikanlı, Zirik, Solquca kənd ümumi orta məktəblərində həm tədris dilindən, həm də riyaziyyat fənninndən orta bal yüksəlmişdir. Rayon üzrə tədris dilində 15, riyaziyyatdan isə 25 məktəbdə orta ballar yüksəlmiş, digər məktəblərdə isə azalmışdır. Hər iki fənndən orta ballar əvvəlki ilə nisbətən aşağı düşmüşdür.

Tam orta təhsil kursu üzrə imtanlarda şəhər 2, 4 nömrəli, Vəndam qəsəbə 1 nömrəli, Kötüklü, Daşlıca, Zalam, Xırxatala, Abrıx, Hacıalılı, Həmzəli, Zarağan kənd 1, 2 nömrəli, Tüntül kənd tam orta məktəblərinin məzunları daha yüksək nəticələr göstərmişlər.

Buraxılış imtahanlarında Nic 1, 2, 5 nömrəli, Mamaylı, Məmmədağalı, Tikanlı, Qaradeyn kənd tam orta, Yengicə, Topbağ, Savalan, Solquca, Zirik kənd ümumi orta məktəbləri davamlı olaraq zəif nəticə göstərirlər. Təhsilyanı şura iclasında həmin məktəblərin direktorları ciddi intizam tənbehi edilmiş, növbəti dərs ilində bu istiqamətdə işlərində ciddi dönüş yaratmaları tapşırılmışdır.

Nəticələr araşdırılarkən bütün fənlər üzrə 90 və daha çox bal toplayan məzunların siyahıları tərtib edilmiş onlar rayonun "İstedad bankı"na əlavə olunmuş tam orta təhsil səviyyəsində həmin şagirdlərin təlim prosesinə ciddi nəzarət etmək məktəb rəhbərlərinə tapşırılmışdır.

Hesabat dövrünün ən önəmli məsələlərindən biri Azərbaycan dövlətinə, Azərbaycançılıq ideyalarına öz töhfəsini vermiş dövlət xadimlərinin, elm-sənət adamlarının, tarixi şəxsiyyətlərinin, Azərbaycan hökmdarlarının, vətənin müdafiəsi, torpaqlarımızın azad olunması yolunda qəhrəmanlıqlar göstərmiş şəxslər haqqında şagirdlərin məlumatlandırılması, onların anım günlərinin keçirilməsidir. Məktəblilərin respublikanın, həmçinin rayonun görməli yerlərinə məqsədli ekskursiyalar təşkil olunmuş, "Unutsaq unudularıq" devizi ilə ölkəmizin tanınmış elm, incəsənət xadimləri, alimlər, təhsil adamları ilə görüşlər keçirilmiş, onlar haqqında şagirdlər tərəfindən daha dolğun və geniş məlumatlar əldə olunmuşdur. Qüdrətli Azərbaycan hökmdarlarının və sərkərdələrinin həyatına aid dəyirmi masalar, konfranslar keçirilmiş, sərgilər təşkil olunmuşdur. Bu da şagirdlər arasında dövlətçilik, azərbaycançılıq, vətənə bağlılıq, vətənpərvərlik ideyalarını daha da gücləndirmişdir.

Bu sahədə möhtərəm Prezidentimiz İlham Əliyevin tapşırığı ilə həyata keçirilən "Ölkəmizi tanıyaq" maarifləndirici tur aksiyası ilə məktəblilərin müxtəlif rayonlara, şəhərlərə olan gəzintiləri müstəsna rol oynayır.

Azərbaycançılıq ideologiyasının mahiyyətinin təbliği və izah olunması, müstəqilliyimizin simvolu olan dövlət rəmzlərinin hər bir şagird tərəfindən dərindən dərk olunması istiqamətində məqsədyönlü işlər 2018-2019-cu dərs ilində də davam etdirilmiş, esse, inşa, bədii qiraət, rəsm və mahnı müsabiqələri, ən yaxşı təqdimat, ədəbiyyat biliciləri üzrə dinləmələr aparılmış, müzakirələr təşkil olunmuşdur. 3 may 2019-cu il tarixdə məktəb rəhbərlərinin, qabaqcıl müəllimlərin iştirakı ilə "Uşaq və gənclərin azərbaycançılıq ideologiyası ruhunda tərbiyəsi" mövzusunda ümumrayon konfransı keçirilmiş, burada məktəb mərhələsində keçirilmiş konfranslardan seçilmiş ən yaxşı 6 məruzə dinlənilmiş, məruzə və çıxışlar "Qəbələ" qəzetində işıqlandırılmış, materiallar təhsil şöbəsinin saytına yerləşdirilmişdir.

Tədris ili ərzində hər həftənin ilk günü Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlamışdır.

Aprel ayında Təhsil Nazirinin 7 mart 2019-cu il tarixli əmrinin icrası ilə bağlı tədbirlər həyata keçirilmiş, ilk dəfə olaraq məktəblərdə "Oxu" gününə aid divar qəzetləri, bülletenlər hazırlanmış, sərgilər təşkil olunmuş, ədəbi-bədii gecələr, qiraət axşamları, bədii əsərlərin müzakirələri, məktəb kitabxanalarında "Mütaliə aylığı" keçirilmişdir. 23 aprel 2019-cu il tarixdə isə Şəhər 4 saylı tam orta məktəbdə "Oxu günü" nə həsr olunmuş geniş yekun tədbiri keçirilmişdir.

Məktəblərdə sağlam mənəvi-psixoloji və təhlükəsiz mühitin yaradılması, təhsil alanlarda müsbət davranış modelinin formalaşdırılması, ailə, məktəb, valideyn münasibətlərinin düzgün tənzimlənməsi, məktəb pedaqoji kollektivinin məsuliyyətinin artırılması, valideynlər arasında maarifləndirmə işinin gücləndirilməsi, məktəblərdə psixoloji xidmət işinin daha da yaxşılaşdırılması, təhsil alanların sosiallaşdırılmasında yaranan çətinliklərin, zərərli vərdişlərə, aludəçiliyin vaxtında aşkar edilərək aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi istiqamətində xeyli işlər görülmüşdür.

Hüquq-mühafizə və səhiyyə orqanlarının nümayəndələri ilə bir çox təhsil müəssisələrində, o cümlədən şəhər 2, 3, 5 nömrəli, Həmzəli kənd tam orta məktəblərində pedaqoji kollektivlər, şagirdlər, valideynlərlə görüşlər keçirilmiş, maarifləndirici söhbətlər aparılmışdır. Görülən işlərin, keçirilən tədbirlərin nəticəsidir ki, rayon məktəbliləri arasında ciddi qanun və hüquq pozuntusuna yol verən, alkoqollu içkilərə və psixotrop maddələrə meyl göstərən , internet şəbəkəsindən təhlükəli istifadə edən və zərərli məlumat alan şagirdlərə rast gəlinməmiş, qeyd olunan məsələlərlə bağlı polis şöbəsində qeydiyyata alınan məktəblimiz olmamışdır.

Keçən dərs ilində şöbədə vətəndaşların qəbulu, ərizə və şikayətlərinə baxılması məsələlərinə həssaslıqla yanaşılmış və qaldırılan problemlərin şöbənin gücü daxilində vaxtında həll edilməsinə ciddi səy göstərilmişdir.

**Hörmətli konfrans iştirakçıları!**

Yeni dərs ilinə hazırlıq istiqamətində rayonun bütün ümumi təhsil müəssisələrində xeyli iş görülmüşdür. Məktəblərin demək olar ki, hamısında cari təmir işləri aparılmış, şəhər 3 saylı tam orta məktəbində bütün pəncərələr yeni plastik pəncərələrlə əvəz olunmuşdur, Həmzəli kənd tam orta məktəbinin güclü külək nəticəsində dağılmış dam örtüyünün bir hissəsi, Bum qəsəbə tam orta məktəbində dam örtüyü dəyişdirilmişdir.

Təhsil Nazirliyinin 4 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi tərəfindən təhsil müəssisələrinin yanacağa olan tələbatı müəyyən edilmiş, odunla qızdırılan məktəblərin tələbatı dəqiqləşdirilmiş, odun tədarükünə başlanılmışdır.

İstilik sistemi ilə işləyən məktəblərdə təmir işləri aparılmış, nasaz vəziyyətdə olan su nasosları, motorlar təmir olunmuşdur. Azərbaycan Respublikası Təhsil nazirinin əmri ilə 5 məktəbin istilik sisteminin qazlaşdırılması işlərinə başlanılıb.

Məktəbləri pedaqoji kadrlarla təmin etmək məqsədi ilə Təhsil Nazirliyinə məktəblərdəki 131 vakant yer haqqında məlumat verilmişdir. Müəllimlərin işə qəbulu imtahanından keçən 24 nəfər, yerdəyişmə ilə 21 nəfər, müvəqqəti müqavilələrin daimiləşməsi üzrə 13 nəfər müvəqqəti yerləşmə üzrə 1 nəfər həmin vakant yerlərə təyin olunmuşdur. Müddətli müqavilə ilə işə götürülmə davam edir.

2018-2019-cu dərs ilində rayonun 5 tam orta məktəbinə 1 biologiya, 3 kimya, 3 fizika olmaqla cəmi 7 yeni laboratoriya verilmişdir. Lakin hələlik onların heç biri quraşdırılmamışdır.

Məktəblərin pulsuz dərsliklə, müəllim vəsaiti ilə təminatında, eləcə də məktəb kitabxanalarının fondunun zənginləşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Məktəblərə 87 adda 39365 ədəd dərslik, 64 adda 1252 ədəd müəllimlər üçün vəsait verilmişdir.

Qəbələ Rayon Təhsil Şöbəsi Azərbaycan Respubikası Təhsil Nazirliyini, Qəbələ Rayon İcra Hakimiyyətini əmin edir ki, rayonumuzun bütün təhsil işçiləri yeni tədris ilində daha böyük uğurlar uğrunda əzmlə çalışacaqlar.

# "Məzunlarla görüş" ənənə halını alıb

*Express Təhsil Mərkəzi (İsra kursları) ənənəvi olaraq "Məzunlarla görüş" tədbiri keçirmişdir. Tədbirə Express TM-in dinləyiciləri ilə yanaşı 2018-2019-cu dərs ilində Qəbələ rayon məktəblərini yüksək göstəricilərlə bitirib ali məktəblərə qəbulda da böyük uğur əldə edən məzunlar dəvət edilmişdir.*

*"Məzunlarla görüş" tədbirini Express Təhsil Mərkəzinin rəhbəri Bünyad Şahvələd giriş sözü ilə açaraq qonaqları salamlamış təmsil etdiyi qurumun Qəbələ təhsilindəki rolundan bəhs etmişdir.*

*Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova ali məktəblərə qəbul imtahanlarında uğur qazanan bütün məzunları təbrik etmiş, express TM-in bu sahədəki rolunu yüksək qiymətləndirmişdir.*



*Tədbirdə iştirak edən məktəb direktorları, digər hazırlıq mərkəzlərinin nümayəndələri də çıxışlarında bu kimi tədbirlərin gələcək abituriyentlərin stimullaşmasında müsbət rol oynadığından bəhs etmişdir.*

*Tədbirdə Respublika fənn olimpiadalarında qızıl medal qazanan şagirdə 150 manat pul mükafatı, sertifikat və qiymətli hədiyyələr, gümüş və bürünc medal qazanan şagirdlərə 100 manat pul mükafatı, sertifikat və qiymətli hədiyyələr, qəbul imtahanlarında 675-dən çox bal toplayan məzunlara 150 manat pul mükafatı, serifikat və qiymətli hədiyyələr 650-674 bal toplayan şagirdlərə 100 manat pul mükafatı sertifikat və qiymətli hədiyyələr, ötən dərs ilində tam orta məktəbləri qızıl medalla bitirən şagirdlərin hər birinə 100 manat pul mükafatı, sertifikat və qiymətli hədiyyələr, tam orta məktəbi gümüş medalla bitirmiş şagirdə 50 manat pul mükafatı sertifikat və qiymətli hədiyyələr, rayon üzrə qəbul imtahanlarında 600-649 bal toplamış məzunlara və Express TM-in futbol turnirində qalib olan komanda üzvlərinin hər birinə isə sertifikat və digər qiymətli hədiyyələr təqdim olunmuşdur.*

***"Qəbələ"***

***Səhrab Umuyev (foto).***